ARS Reabilitasiya Mərkəzi

+994 12 564 04 07
+994 12 564 04 08
+994 99 880 17 88
+994 70 880 17 88
arsreabilitasiya__
info@ars.az
Aşiq Molla Cümə küç. 44B

WWW.ARS.AZ

# SEREBRAL İFLİC



## REABİLİTASİYA TİBBİ PAKET

ARS Reabilitasiya Mərkəzi

# ARS
## REABİLİTASİYA MƏRKƏZİ

AXTARDIĞINIZ REABİLİTASİYA SAĞLAMLIQ MƏRKƏZİ



> UŞAQLAR OLMASAYDI İNSANLIĞI BU QƏDƏR SEVƏ BİLMƏZDİK.
>
> F. Dostoyevski

# SEREBRAL İFLİC NƏDİR?

Serebral iflic körpəlik və ya erkən uşaqlıq dövründə sinir sisteminin bədən hərəkətlərinə, əzələ koordinasiyasına, nitqə və psixikaya təsir göstərən bir qrup pozuntulardır.

Serebral iflicin mərkəzi sinir sisteminin yuxarıda qeyd etdiyimiz pozuntulara cavab verən zonalarının zədələnməsinin nəticəsidir. Serebral iflic yoluxucu xəstəlik deyil. Dünyada təxminən hər min uşaqdan 1,5-4-ü bu xəstəlikdən əziyyət çəkir.

**SEREBRAL İFLİC YOLUXUCU XƏSTƏLİK DEYİL**



**Dünyada təxminən hər min uşaqdan**

**1,5 - 4**

**bu xəstəlikdən əziyyət çəkir**

# SEREBRAL İFLİCİN FORMALARI

- SPASTİK FORMA
- ATAKSİK FORMA
- QARIŞIQ FORMA
- DİSKİNETİK FORMA
- HİPOTONİK FORMA



Uşaq serebral iflicin müalicəsi erkən dövrdə başlamalı və ardıcıl davam etdirilməlidir. Uşaq həkimi, uşaq nevropatoloqu, müalicəvi idman həkimi, fizioterapevt, loqoped, psixoloq, ortoped, başqa mütəxəssislərlə birgə çalışaraq, belə xəstələri sözün əsl mənasında ayağa qaldırmalıdırlar.

Əsas müalicə fiziki, nitq və psixi funksiyaların məşqi yolu ilə nevroloji defektin azalmasına yönəldilir. Məqsəd müalicəvi idman, fizioterapiya, masaj vasitəsi ilə uşağın hərəkəti aktivliyini onun imkanları daxilində maksimal dərəcəyə çatdırmaqdır. Körpənin beyni çox plastikdir və gərgin, davamlı reabilitasiya apardıqda hətta ağır formalı serebral iflici olan uşaqlar belə gözəl nəticələr göstərə bilər.

**Serebral iflicin müalicəsində ilk addım**

**FİZİOTERAPİYADIR.**

Fiziki amillərin orqanizmə təsir gücündən istifadə edərək pozulmuş hərəkətlərini, koordinasiyanı, spastikanı, hipokenezi və hiperkenezi, hipotonus və hipertonusu, ağrını, kontrakturanı və ümumən vücudu korreksiya etmək üçün əhəmiyyətli bir vasitədir.



*Serebral iflic fizioterapiyasında istifadə edilən müalicə üsulları xəstədə real simptomokompleksə müvafiq və fərdi həyata keçirilir.*



# SEREBRAL İFLİC DÜNYADA

**Dünyada serebral ifliclə yaşayan 17 milyon insan var. Bunlara xidmət edən insanları da nəzərə alsaq bu rəqəm 350 milyon olur. Uşaqlıqda ən çox rast gəlinən fiziki qüsurdur və bu qüsur daim diqqət, xidmət, qayğı, sevgi və reabilitasiya tələb edir.**

Serebral iflicin yayılması hər 1000 nəfərə 4 nəfərdir. Serebral iflici ilə olan uşaqlarda 35%-də epilepsiya, 33%-i hərəkət məhdudiyyəti, 56%-da tək yeriyə bilən və qalan 8%-də autizm kimi bir sıra xəstəliklərlə nəticələnir.

Serebral iflic uşağın rüşeyim səviyyəsində və sonrakı dövrdə baş-beyinin zədələnməsi nəticəsində yaranır. Bu problemlər ən çox uşağın ilk aylarında və gecikdirilmiş hallarda isə 2 yaşına qədər tam birüzə çıxır.



## MƏQSƏDİMİZ

Bu layihədə serebral iflicli olan xəstələri müalicə və reabilitasiyasını tam əhatə etmək və onların ailələrinə maarifləndirmə proqramları həyata keçirməkdir. Bu xəstələrin effektli və kompleks mualicəsi üün yerli, xarici, təcrübəli və yüksək kateqoriyalı həkim kadrlarından istifadə etmək niyyətindəyik. Müalicə prinsiplərimizdə qarşımıza qoyduğumuz məqsəd dərmanlarının yan təsirini minimuma endirmək, qısa zaman baxımında xəstənin həyat keyfiyətini və özünə xidməti yüksəltmək, eyni zamanda cəmiyyətə inteqrasiya etməyə, əlilliyi dərəcəsini minimuma endirməkdən ibarətdir.

Bu layihədə serebral iflicli olan xəstələr əvvəlcədən planlaşdırılmış proqramla, il ərzində dəfələrlə müayinə və müalicə olunacaqlar. Aldıqları müalicə dövründə onlayn xidmət vasitəsilə xəstələri dinamiki müşahidə və evdə özlərinin həyata keçirdiyi məşğələlərinə nəzarət olunacaq.

Xəstənin ailəsi adi haldan, çox aşağı qiymətə və yüksək keyfiyyətli xidmətə sahib olacaqlar. ARS Reabilitasiya Mərkəzində hər bir xəstənin probleminə uyğun müalicə protokolu vardır.



| XİDMƏTLƏR | MÜAYİNƏLƏR |
|---|---|
| AKTİV İDMAN | PEDİATR |
| PASSİV İDMAN | FİZİOTERAPEVT |
| ÜMUMİ MASAJ | NEVROLOQ |
| HİSSƏVİ MASAJ | PSİXİATR |
| UŞAQ MASAJI | PSİXOLOQ |
| AİLƏYƏ TREYNİNQ | LOQOPED |
| ELEKTROTERAPİYA | ORTOPED |
| PNF / RİP / ROM | NOROSİNS |
| POSTUR İDMANLARI | |
| XƏSTƏYƏ TREYNİNQ | |
| BALANS KOORDİNASİYA | |

- **ROM (RANGE OF MOTION)**
  Oynaq və əzələlərdə olan kontrakturaların açılması və oynağın funksiyasının bərpası.

- **RİP (REFLEX INHIBITORY PATTERN)**
  Uşağın oturması, durması və müstəqil yeriməsi vasitəsilə mərkəzi sinir sisteminə göndərilən impulsdur.

- **PRE (PROGRESSIVE RESISTANCE EXERCISE)**
  Əzələlərin gücləndirilməsi üçün verilən fiziki yüklə edilən məşqdir.

- **DURUŞ MƏŞQLƏRİ**
  Qamətin düzgün fizioloji formalaşması üçün sümük, əzələ, oynaq və vətərələr üzərində aparılan məşqlərdir.

- **PNF (PROPRIOCEPTIVE NEUROMUSCULAR FACILITATION)**
  Spastik əzələlər qrupunda onun ontoqonistini və sinirgistini olan əzələləri nəzərə alınaraq olunan əzələ korreksiyasıdır.

- **NMES (NEUROMUSCULAR ELECTRICAL STIMULATION)**
  Əzələ sisteminə aşağı elektrik cərəyanı ilə aparılan əzələ stimulyasiyasıdır.

- **PASSİV İDMAN**
  Əzələ gücünü və oynaqlarda olan hərəkəti qoruyub saxlamaq üçün edilən məşqdir.

- **BALANS VƏ KOORDİNASİYA MƏŞQLƏRİ**
  Balansı və koordinasiyanı təkmilləşdirmək üçün edilən məşqdir.

- **MASAJ**
  Əzələnin qidalanmasını və trofikasını yaxşılaşdırmaq üçün həyata keçirilən müalicə üsuludur.



## TİBBİ HEYƏTİMİZ

ARS Reabilitasiya Mərkəzində yerli, xarici və yüksək ixtisaslı, təcrübəli həkim mütəxəssislərinin əməyindən istifadə olunur. Eyni zamanda ən müasir metodlara və standartlara uyğun tibbi xidmətlər göstərilir. Bu xidmətlər ən uyğun şərtlər daxilində həyata keçirilir. Yuxarıda qeyd edilənləri həyata keçirmək üçün beynəlxalq keyfiyyət meyarlarından istifadə edərək ən effektivli müalicə üsulları təqdim edilməsi əsas meyarımızdır.

## HÜQUQİ MƏLUMAT

- Kart yalnız “ARS Reabilitasiya Mərkəzi”-ndə keçərlidir.
- Xidmətlər yalnız “ARS Reabilitasiya Mərkəzi”-nin həkimlərinin təyinatı ilə həyata keçirilə bilər.
- Kart fərdidir, və başqa şəxs tərəfindən istifadə edilə bilməz.
- Kart, müqavilə imzalandığı tarixdən 1 (bir) il müddətində etibarlıdır.
- Bu karta yalnız Sizə təqdim edilmiş paketdə əks olunmuş xidmətlər daxildir.
- Mərkəzə gəlməmişdən öncə qeydiyyat şöbəsi ilə əlaqə saxlamanız və vaxt almanız vacibdir.

## MİSSİYAMIZ

Cəmiyyətə özünəinamlı, sağlam vətəndaşlar bəxş etmək, ailələrə sağlam sabaha, gələcəyə ümid verməkdir. Bu günün müalicəyə ehtiyacı olan şəxsi, sabahın uğurlu vətəndaşı ola bilər.



## FƏLSƏFƏMİZ

İNSANLARA *Sevgi & Sağlamlıq* BƏXŞ ETMƏK

## VİZYON

Uğurlu reabilitasiya hallərinin tətbiq edilməsi ilə yüksək səviyyəli yerli mütəxəssislərin yetişdirilməsi və ən uğurlu xarici mütəxəssislər ilə kollaborasiya edərək, fəaliyyətimizi Azərbaycan brendi altında bütün dünyada genişləndirmək.



*Mən, uzun illərdir biznes sahəsində fəaliyyət göstərən işgüzar xanımam. Reabilitasiya sahəsi üzrə fəaliyyətimə başlamağıma səbəb olan təsadüfi..., bəlkə də, təsadüf olmayan bir məqamdan danışmaq istəyirəm sizə.*

*Təsadüfən, iki il öncə səhhətimlə bağlı reabilitasiya mərkəzinə müraciət etdim. Bu müddət ərzində klinikaya müraciət edən çoxlu pasientlər gördüm. Ancaq, serebral paralicdən müalicə olunmağa gətirilən uşaqlar daha çox diqqətimi çəkirdi. Bu dönəm ərzində onları müşaiyət edir, valideynləri ilə həmsöhbət olurdum. Çətin müalicə dönəmindən, qayğılarından, bu dönəmdə onların qarşılaşdıqları problemləri söyləyirdilər mənə...*

*Qısa müddət ərzində serebral paralicdən əziyyət çəkən uşaqların valideynlərinin çətinliklərini nəzərə alaraq, bir iş adamı kimi, reabilitasiya sahəsində fəaliyyət göstərilməsinin mənim missiyam olduğunu anladım.*

*Çox düşünmədən, ətrafımda peşəkar xarici və yerli mütəxəssisləri toplayıb, ən müasir, yüksək dünya standartlarına cavab verən avadanlıqlarla təchiz edilmiş Reabilitasiya Mərkəzi təsis etdim.*

*Və indi... neçə neçə uşaqlara, ailələrə normal həyata qayıtmaq imkanı verməkdən şərəf duyuruq.*

*Heç bilmirəm, o zamanlar bir reabilitasiya mərkəzinə müraciət etməyim təsadüf idi, yoxsa yox....*

*Sevda Xanməmmədova*